Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış



# Azərbaycanın Böyük Qayıdış üçün gördüyü işlər dünyanı heyrətə gətirir...

**Azərbaycanın erməni işğalından azad etdiyi ərazilərdə başlatdığı genişmiqyaslı abadlıq-quruculuq işləri öz sürət dinamikasına görə bu gün bütün dünyada heyrət doğurur.**

Elə bunun nəticəsidir ki, Azərbaycan artıq yaxın tezlikdə azad edilmiş ərazilərə keçmiş məcburi köçkünlərin qaytarılması prosesinə start verməyə hazırlaşır. Başqa sözlə, Böyük Qayıdış prosesi uğurla reallaşmağa başlayır.

**Azərbaycan Livan boyda bir ərazini bərpa edir...**

Qeyd edilən xüsusda Prezident İlham Əliyev Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya müsahibəsində olduqca maraqlı fikirlər səsləndirib. Müsahibəsində dövlət başçısı qeyd edib ki, azad edilən ərazilərdə görülən işlər fonunda əsas məqsəd keçmiş qaçqınları və köçkünləri tezliklə öz yurdlarına qaytarmaqdır: "Onlar hədsiz çox gözləyiblər. Mən bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas maneəmiz, əsas rəqibimiz zamandır. Biz bir il ərzində və ya il yarım ərzində bunu, sadəcə, fiziki olaraq edə bilmərik, ona görə ki, siz özünüz də görmüsünüz, orada heç nə yoxdur, özü də hər yerdə. Mən Bakıdan Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına qədər və digər istiqamətdə Kəlbəcər və Laçın tərəfdən yüzlərlə kilometr yol qət etmişəm, orada hər şey dağıdılıb. Dağıntıların miqyası elədir ki, insan sadəcə mat qalır. Axı, bu ərazi sahəsinə görə Livana bərabərdir. Təsəvvür edin, dünyada heç də kiçik olmayan bir ölkənin - Livanın ərazisinə bərabər ərazini tikmək, abadlaşdırmaq lazım gələcək…

İndi bölgədə genişmiqyaslı işlər aparılır, ilk növbədə, elektrikləşmə işləri. Biz azad olunmuş bütün əraziləri artıq bu ilin sonuna qədər elektrik enerjisi ilə tam təmin edəcəyik. Laçında, Kəlbəcərdə və Suqovuşanda gücü 20 meqavat olan su elektrik stansiyaları bərpa edilib, artıq onlar enerji verir. Bir neçə yardımçı stansiya tikilib. Bütün istiqamətlərdə yollar çəkilir... Bu il biz təkcə azad olunmuş ərazilərin bərpası proqramına 1,3 milyard dollar vəsait ayırmışıq. Bu məbləğin təqribən 400 milyon dolları hələlik bölünməyib, çünki biz bütün qaydalara - tender, planlaşdırma, layihələndirmə prosedurlarına riayət edirik. Ağdam şəhərinin bərpası artıq başlanıb, baş plan təsdiq edilib. Şuşa şəhərinin baş planı təsdiq edilib. Bu yaxınlarda Şuşada 25 evdən ibarət yeni yaşayış kompleksinin təməlini qoymuşam. Mənim fikrimcə bir il, maksimum il yarım ərzində həmin evlər tikiləcək və biz şuşalıları oraya qaytara biləcəyik...Bir də, əlbəttə, Zəngilan rayonundakı "smart village" - "ağıllı kənd" kimi nöqtəvi layihələr var. İndi digər rayonların hərəsində bir pilot layihə həyata keçirəcəyik ki, insanları qaytara bilək. Mən vaxt müəyyən etmək istəmirəm, lakin düşünürəm ki, - düşünürəm yox, lap dəqiq deyirəm, - Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər. Başqa kəndlərə də bir il müddətində köçmək olar. İri şəhərlərin bərpası isə yəqin ki, vaxt tələb edəcək, lakin biz bunu mərhələli şəkildə planlaşdıracağıq".

Beləliklə, dövlət başçısının səsləndirdiyi fikirlərdən bəlli olur ki, Azərbaycan mühüm bir prosesə, keçmiş məcburi köçkünlərin dogma yurdlarına qayıtmasına bu ilin sonunda başlaya bilər. Həmin insanlar həm evlərlə, həm də iş yerləri ilə təmin ediləcək. Bu məqsədlə dövlət həm böyük həcmdə maliyyə vəsaiti ayırıb, həm də genişmiqyaslı bir plan həyata keçirir. Azad edilmiş ərazilərdə görülən işlər Azərbaycanın bu yerlərin sosial-iqtisadi inkişafı ilə bağlı siyasət və konsepsiyasına uyğundur. Bununla da, dövlət investisiyaları ilə yanaşı, yerli və xarici sərmayələrin cəlb edilməsi ilə işğaldan azad olunan ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində qarşıya qoyulan məqsədə uğurla nail olunduğu tam təsdiqini tapır. Digər tərəfdən, azad olunmuş ərazilərdə həyata keçirilən işlər Azərbaycan iqtisadiyyatının daha da güclənməsi, məşğulluq səviyyəsinin yüksəlməsi baxımından da müstəsna əhəmiyyət kəsb edir. Xüsusən də aqrar biznes, ərzaq, dağ-mədən sənayeləri, "yaşıl enerji", nəqliyyat-logistika və turizm kimi mühüm qeyri-neft sahələrində qarşıdakı dövr ərzində daha dinamik inkişaf qeydə alınacaq.

**Azad edilən ərazilərə yeni xarici sərmayə axını başlanır...**

Təbii ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda bu gün həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi Azərbaycana dünya miqyasında marağı daha da artırır. Yaxın tezlikdə bu prosesdə daha çox sayda xarici tərəfdaşın iştirakı gözlənilir.

Düzdür, hazırda əsas işlər dövlət büdcəsi hesabına həyata keçirilir. Xatırladaq ki, Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait də nəzərdə tutulub. Bundan başqa, Prezidentin bu ilin əvvəlində verdiyi fərmanla azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Bu fond azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Lakin Azərbaycan prosesdə xarici tərəfdaşların da sayının çox olmasında maraqlı tərəfdir. Bir sıra ölkələr, məsələn, Türkiyə, İsrail, İtaliya, Böyük Britaniya, Çin şirkətləri artıq azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak edir. Onların sırasına digər xarici şirkətlər də qatılmaq niyyətlərini artıq Azərbaycanın diqqətinə çatdırıb. Bütün bunlar nəticəsində azad edilən ərazilərin sistemli şəkildə bərpa və yenidənqurma işləri həyata keçiriləcək, əhalinin məskunlaşdırılmasına başlanılacaq, böyük potensiala malik regionun iqtisadiyyatı inkişaf etdiriləcək. Məhz bu da azad edilən ərazilərə perspektivdə daha çox xarici sərmayə axınını təmin edəcək başlıca faktorlardan biri kimi çıxış edəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**